

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 36 (20.937)

*25 fevral 2014-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycrini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə İSESKO arasında əlaqələrin uğurlu inkişafından məmnunluq ifadə olundu, əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.



## Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Şirkətinin bir qrup əməkdaşının təltif edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında yol-tikinti sahəsində səmərəli fəaliyyətlərinə görə:

Abdullayev Rüstəm Lətif oğlu
Babayev Talıb Ramiz oğlu
Babayeva Xalidə Musa qızı
Cəfərov Xeybər Cəfər oğlu
Əsgərov Rəşid İbrahim oğlu
Həsənov Davud Dadaş oğlu
Həsənov Malik Həsən oğlu
İbrahimov Yaşar Abbas oğlu
Qasımov Həsən Əsrafül oğlu
Məmmədov İslam Mahmud oğlu
Məmmədov Yavər Dilavər oğlu
Mehdiyev Müslüm Abbas oğlu – **"Rəşadətli əməyə görə"** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 22 fevral 2014-cü il*

## Naxçıvanda "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin Ehtiyat Yerüstü Peyk İdarəetmə Mərkəzi yaradılmışdır





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında" Sərəncamının, eləcə də bununla bağlı qəbul olunan dövlət proqramlarının icrası nəticəsində ölkəmiz kosmik sənaye sahəsində yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. 2013-cü il fevralın 8-də Azərbaycanın ilk telekommunikasiya peyki "Azərspace-1"in orbitə buraxılması isə ölkəmizin dünya kosmik məkanına inteqrasiyasını təmin etmişdir.

Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq, Naxçıvanda "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin Ehtiyat Yerüstü Peyk İdarəetmə Mərkəzi yaradılmışdır.

Fevralın 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Ehtiyat Yerüstü Peyk İdarəetmə Mərkəzində yaradılan şəraitlə tanış olmuşdur.

Naxçıvan Muxtar Respublikasının rabitə və informasiya texnologiyaları naziri Rövşən Məmmədov məlumat vermişdir ki, idarəetmə mərkəzi üçün ərazidə yeni inzibati bina tikilmiş və idarəetmə antenası quraşdırılmışdır. Binada sistem, idarəetmə və elektrik otaqları, eləcə də mətbəx və istirahət otağı istifadəyə verilmişdir. Sistem və idarəetmə otaqlarında ən müasir avadanlıqlar quraşdırılmış, işçilərin fəaliyyəti üçün lazımi şərait yaradılmışdır. Binada təhlükəsizlik tədbirlərinə tam əməl edilmiş, yanğından avtomatik mühafizə sistemi və videomüşahidə kameraları quraşdırılmışdır. Əsas idarəetmə mərkəzində yaranan hər hansı texniki nasazlıq zamanı idarəetmə avtomatik olaraq Ehtiyat Yerüstü Peyk İdarəetmə Mərkəzinə ötürülür. Bu da "Azərspace-1" peykinin kəsintisiz idarə və istismar olunmasına imkan verir.



"Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin Ehtiyat Yerüstü Peyk İdarəetmə Mərkəzinin Naxçıvanda yaradılması muxtar respublika üçün mühüm əhəmiyyətə malikdir. Belə ki, idarəetmə mərkəzi muxtar respublikada informasiya təhlükəsizliyinin təmin edilməsi, elmtutumlu yeni layihələrin icrası, keyfiyyətli teleradio yayım və rabitə xidmətlərinin göstərilməsi, eləcə də elektron hökumətin formalaşdırılması prosesini xeyli sürətləndirəcəkdir.

Binanın həyətində də abadlıq işləri aparılmış, transformator yarımstansiyaları və generator quraşdırılmış, yaşıllıqlar salınmış, işıqlandırma sistemi qurulmuş və ərazinin mühafizəsi təmin edilmişdir.

Ali Məclisin Sədri idarəetmə mərkəzinin muxtar respublikada dayanıqlı rabitə xidmətlərinin göstərilməsində və telekommunikasiya infrastrukturunun inkişafında mühüm əhəmiyyətə malik olacağını bildirmiş, yerli mütəxəssislərin yetişdirilməsi və təhlükəsizlik tədbirlərinə ciddi əməl olunması barədə tapşırıqlar vermişdir.

## Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsində yenidənqurma işləri aparılmışdır

Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsinin inzibati binasında və texniki sahələrində yenidənqurma işləri aparılmışdır.

Fevralın 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsinə gəlmiş, aparılan yenidənqurma işləri ilə maraqlanmışdır.

Bildirilmişdir ki, müəssisənin inzibati binası və yanacaqdoldurma məntəqələri ən müasir şəkildə qurulmuş, yeni yanğından mühafizə sistemi və avtomobil parkı yaradılmışdır. Yanacaqdoldurma məntəqələrində quraşdırılan avadanlıqlar avtomobillərin tez bir zamanda yüklənməsinə imkan verəcəkdir.

*Ardı 2-ci səhifədə*







Ərazidə yanğın təhlükəsizlik tədbirləri Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilir. Müəssisədə yanğınsöndürənlər üçün xidməti otaq yaradılmış, bütün ərazini əhatə edən videonəzarət və işıqlandırma sistemləri quraşdırılmışdır. Bu da təhlükəsizlik tədbirlərinin keyfiyyətlə yerinə yetirilməsinə və baş verə biləcək yanğın hadisələrinin tez bir zamanda qarşısının alınmasına imkan verəcəkdir.

Bu il Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsinə yanacaq-sürtgü materiallarının daşınması üçün 10 ədəd “MAN” markalı avtomobil alınmışdır. Diqqətə çatdırılmışdır ki, Almaniya istehsalı olan və uzaqmənzilli yüklərin daşınması üçün nəzərdə tutulan bu avtomobillər 32,5 ton yanacaq tutumuna malikdirlər.

Ali Məclisin Sədri muxtar respublikaya yanacaq məhsullarının daşınması zamanı yeni avtomobillərdən istifadə olunması, daxili və xarici daşınmalarda istismar qaydalarına və təhlükəsizlik tədbirlərinə ciddi diqqət yetirilməsi, sürücülərin Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbində təkmilləşdirmə kurslarına cəlb edilməsi barədə müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan şəhər 11 nömrəli tam orta məktəbin binası istifadəyə verilmişdir





Fevralın 24-də Naxçıvan şəhər 11 nömrəli tam orta məktəbin binası istifadəyə verilmişdir.

Açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iştirak etmişdir.

Məktəbin direktoru Elmira Həsənova çıxış edərək demişdir ki, muxtar respublikada təhsil müəssisələrinin maddi-texniki bazalarının gücləndirilməsi və informasiya-kommunikasiya texnologiyaları ilə təminat diqqət mərkəzindədir. Bu gün Naxçıvan şəhər 11 nömrəli tam orta məktəbi də müasir təhsil müəssisələrinin sırasına qoşulur. Yeni bina və yaradılan hərtərəfli şərait məktəbin müəllim və şagird kollektivi üçün əvəzsiz töhfə, eyni zamanda yeni vəzifələr deməkdir. Pedaqoji kollektiv bundan sonra da gənc nəslin təlim-tərbiyəsində səylə çalışacaq, bilikli və vətənpərvər gənclər yetişdirəcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 11 nömrəli tam orta məktəbin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik etmiş, onlara tədrisdə uğurlar arzulayaraq demişdir: “Ölkəmizdə təhsilin inkişafı istiqamətində həyata keçirilən tədbirlər bu sahədə uğurların qazanılmasına, tədrisin forma və məzmunca yeniləşməsinə səbəb olmuşdur. Hər il ali məktəblərə qəbulda yüksək bal toplayanların və xaricdə təhsil alan tələbələrin sayının artması da ölkəmizdə təhsilə göstərilən dövlət qayğısının nəticəsidir”.

Ümummilli liderimiz Heydər Əliyevin ***“Gəncləri təhsilli etməklə Azərbaycanın gələcəyi üçün yaxşı əsas yaradırıq”*** fikrini xatırladan Ali Məclisin Sədri demişdir: “Təhsilin inkişafı ölkənin inkişafı və gələcəyi deməkdir. Bu mənada hər bir xalqın gələcəyi məktəblərdə yetişən gənclikdən asılıdır. Təhsilin müasir tələblər səviyyəsində təşkili, müəllim-şagird münasibətlərinin qarşılıqlı anlaşma və tələbkarlıq üzərində qurulması, gənclərə xalqımızın milli dəyərlərinin öyrədilməsi isə sağlam cəmiyyətin formalaşmasına xidmət edir. Bu gün Azərbaycanda sabitlik və inkişaf vardır. Dövlət tərəfindən təhsilin inkişafına, məktəb işinə hərtərəfli qayğı göstərilir, təhsil sahəsində uğurlu nailiyyətlər qazanılır. Bütün bunları 11 nömrəli tam orta məktəbin timsalında da görmək mümkündür. Məktəbin uğurlu təhsil ənənələri vardır. Ötən tədris ilində ali məktəblərə qəbulda göstərilən nəticələr də bunu bir daha təsdiq etdi. Yaradılan şərait gələcəkdə nailiyyətləri daha da artırmağa imkan verəcəkdir”.

Ali Məclisin Sədri 11 nömrəli tam orta məktəbin Xocalı soyqırımı ərəfəsində istifadəyə verildiyini bildirərək demişdir ki, gənclərimiz tariximizi dərindən öyrənməli, xalqımıza qarşı törədilmiş soyqırımları unutmamalı, vətənpərvər ruhda böyüməli, dövlətimiz üçün yararlı vətəndaş olmalıdırlar. Müəllimlər unutmamalıdırlar ki, onlar ölkəmizin gələcəyini hazırlayanlar, şagirdlər isə bu gələcəyin etibarlı təminatçılarıdır. Ona görə də məktəbdə müəllim-şagird münasibətləri qarşılıqlı tələbkarlıq şəraitində qurulmalı, gənclər biliklərə dərindən yiyələnməlidirlər.

Ali Məclisin Sədri qazanılan nailiyyətlərə görə kollektivə təşəkkürünü bildirmiş, Naxçıvan şəhər ümumtəhsil məktəblərində əla qiymətlərlə oxuyan bir qrup şagirdə kompüter dəsti hədiyyə etmişdir.

Açılışı bildirən lent kəsildikdən sonra Ali Məclisin Sədri məktəbdə tədrisin təşkili ilə maraqlanmışdır.

Qeyd olunmuşdur ki, 4 mərtəbəli məktəb binası 1100 şagird yerlikdir. Binada yaradılan müasir sinif otaqları, laboratoriyalar, hərbi kabinə, kompüter otaqları, kitabxana, elektron lövhəli siniflər və idman zalı tədrisin müasir metodlarla təşkilinə imkan verəcəkdir.

Məktəbdə şagirdlərin dərslik, bədii və elmi ədəbiyyatlarla təminatına, eləcə də onların mütaliəsinə xüsusi diqqət yetirilmiş, 17 mindən artıq kitab fondu olan kitabxana yaradılmışdır. Kitabxana ilə tanışlıq zamanı şagirdlərin mütaliə vərdişlərinin artırılmasının vacibliyi qeyd olunmuş, bununla bağlı həvəsləndirici tədbirlərin keçirilməsinin də əhəmiyyəti vurğulanmışdır.

Hazırda məktəbin birinci sinfində 68 şagird təhsil alır. Onların təlim-tərbiyəsinə, eləcə də ibtidai təhsilin əsas şərti olan azyaşlıların psixoloji hazırlıqlarına xüsusi diqqət yetirilir. Yuxarı və aşağı sinif şagirdlərinin ayrı-ayrı mərtəbələrdə təhsil almaları da bu məqsədə xidmət edir.

Ümumtəhsil məktəblərində şahmat fənninin tədrisi şagirdlərin zehni inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Məktəbdə şahmat otağı yaradılmış, şagirdlərin zehni idman oyununa olan marağının artırılması diqqət mərkəzində saxlanılmışdır. Bu istiqamətdə görülən işlərin nəticəsidir ki, məktəbin şagirdləri ölkəmizdə və muxtar respublikada keçirilən bir çox müsabiqə və yarışların qalibi olmuşlar.

Kimya, biologiya və fizika laboratoriyalarında sınaq-təcrübə avadanlıqları quraşdırılmışdır. Elektron dərsliklərlə təminat isə mövzu üzrə müxtəlif mənbələrdən, o cümlədən internet resurslarından istifadə olunmasına və dərslərin daha əhatəli öyrədilməsinə imkan verəcəkdir.

11 nömrəli tam orta məktəbdə 4 kompüter və 4 elektron lövhəli sinif vardır. Kompüter otaqlarında 76 kompüter dəsti quraşdırılmışdır. Sürətli internetə çıxış imkanı kompüterlərdən və elektron lövhələrdən səmərəli istifadəyə, elektron tədris mübadiləsinə və beləliklə, distant təhsilin inkişafına geniş imkanlar açmışdır. Təhsil müəssisəsinin informasiya texnologiyaları ilə təminatı pedaqoji kollektiv və şagirdlər, eləcə də digər ümumtəhsil məktəbləri ilə informasiya mübadiləsi aparmağa imkan verir.

Ali Məclisin Sədri 11 nömrəli tam orta məktəb ilə Şərur rayonunun Aralıq kənd tam orta məktəbi arasında videobağlantı vasitəsilə keçirilən dərsi izləmişdir.

Qeyd edilmişdir ki, informasiya texnologiyalarından istifadə etməklə qurulan müasir təhsil modeli məktəbin pedaqoji heyəti qarşısında da yeni tələblər və vəzifələr qoyur.

*Ardı 3-cü səhifədə*





Müəllimlər təkcə tədris etdikləri fənlər üzrə nəzəri bilikləri deyil, həm də informasiya texnologiyalarından istifadəni dərindən mənimsəməlidirlər. Ona görə də müəllimlərin elmi-nəzəri və peşəkarlıq səviyyəsinin yüksəldilməsində, eləcə də fənlərin tədrisi sahəsində yeniliklərlə tanış olmasında ixtisasartırma kurslarında iştirak vacib amildir. 11 nömrəli məktəbin müəllimləri də mütəmadi olaraq bu kurslarda iştirak edirlər.

Hərbi kabinəyə baxış zamanı bildirilmişdir ki, ötən il məktəbin 4 şagirdi Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunmuşdur. Yaradılan şəraitdən səmərəli istifadə bundan sonra şagirdlərdə hərb sənətinə olan marağı daha da artıracaqdır.

Ali Məclisin Sədri müəllimlərlə söhbət zamanı demişdir ki, təhsilin səviyyəsinin yüksəldilməsində pedaqoji kollektivin üzərinə mühüm vəzifələr düşür. Hər bir müəllim çalışmalıdır ki, təhsilli və vətənpərvər gənclər yetişdirsin. Qeyd olunanlara nail olmaq üçünsə müasir tədris infrastrukturu olmalıdır. Artıq 11 nömrəli tam orta məktəbdə bu yaradılmışdır.

Müəllimlər qeyd etmişlər ki, təhsilin inkişafı pedaqoji kollektiv üçün yeni imkanlar açır. 11 nömrəli məktəbin müəllim heyəti bundan sonra da öz fəaliyyətləri ilə göstərilən etimada layiq olmağa çalışacaqlar.

Binanın həyətində də abadlıq işləri aparılmış, mini-futbol meydançası yaradılmış, yaşıllıq sahələrinin suvarılması üçün 830 metr uzunluğunda su xətti çəkilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Azərbaycan Prezidentinin əhalinin sağlamlığının qorunmasına dair tapşırıq və göstərişləri Naxçıvanda da uğurla icra olunur

***Bu il fevralın 17-dən ölkə ərazisində, eləcə də Naxçıvan Muxtar Respublikasında əhalinin kütləvi dispanserizasiyası tədbirlərinə başlanılıb. Kütləvi müayinələr ölkə əhalisinin sağlamlığının mühafizəsi və yaxşılaşdırılması istiqamətində görülən işlərin davamı olaraq, dövlət başçısının tapşırığı ilə həyata keçirilir. Əhalinin kütləvi profilaktik tibbi müayinəsi cari ilin may ayında başa çatdırılacaq.***





Qeyd edək ki, muxtar respublikamızın bölgələrində 7 rayon mərkəzi xəstəxanası, 3 kənd sahə xəstəxanası, 90 həkim ambulatoriyası və 105 feldşer-mama məntəqəsi əhalinin kütləvi profilaktik müayinələrində iştirak edir. Naxçıvan şəhərində isə 1 poliklinika, 4 ixtisaslaşdırılmış dispanser, 4 mərkəz, 2 xəstəxana kollektivi tərəfindən əhalinin kütləvi müayinəsi aparılır. Bu günə qədər səhiyyə müəssisələri tərəfindən 10 mindən artıq muxtar respublika sakini tibbi müayinədən keçirilib. Aşkar olunan ilkin xəstələr, xəstəliyə meyilli insanlar, eləcə də qeydiyyatda olan xroniki xəstələr əlavə müayinələrə cəlb olunublar. Kütləvi müayinələr sürətlə və ardıcıllıqla davam etdirilir.

Fevralın 22-də Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində həyata keçirilən kütləvi müayinələrdə iştirak edənlər bu tədbiri dövlətimizin insan amilinə, vətəndaşların sağlamlığına verdiyi önəmin bariz təzahürü kimi qiymətləndirdilər, təşkilatçılara minnətdarlıqlarını bildirdilər.

Mərkəzin Radioloji şöbəsinin müdiri İsmayıl Quliyevlə söhbətimizdə bildirdi ki, əhalinin əksər hissəsi ilə səhiyyə maarifi işinin aparılmasının davam etdirilməsi günün vacib tələbidir. Çünki mərkəzdə aparılan müayinələr zamanı orqanizmində xəstəlik aşkar edilən xəstələrin əksəriyyəti həkimə müraciət etməyə tənbəllik edən insanlardır. Onlarla söhbət zamanı məlum olur ki, bu və ya digər xəstəliklərin simptomlarını açıq-aşkar müşahidə etsələr də, ümumi müayinə olunmayıblar, muxtar respublika səhiyyəsinin hansı imkanlara malik olduğundan xəbərsizdirlər. Ona görə də əhalinin kütləvi müayinələrə cəlb olunması mühüm əhəmiyyətə malikdir.

Ümumiyyətlə, insan amili, onun layiq olduğu səviyyədə yaşamasının təmin edilməsi muxtar respublikamızda həyata keçirilən sosial-iqtisadi islahatların mühüm tərkib hissələrindən biridir. Tikilən və yaxud yenidən qurulan xəstəxanalar, həkim ambulatoriyaları, feldşer-mama məntəqələri, bu səhiyyə ocaqlarının maddi-texniki bazalarının möhkəmləndirilməsi, səhiyyə sahəsində aparılan islahatlar nəticəsində yeni strukturlu müalicə müəssisələrinin yaradılması əhalinin sağlamlığının qorunması işində əsaslı dönüş yaradıb. Aparılan kütləvi müayinələr də bir daha göstərir ki, dövlətimiz əhalinin sağlamlığının etibarlı təminatına böyük önəm verir.

**Səbuhi HÜSEYNOV**

***AMEA Naxçıvan Bölməsində keçirilən konfransı giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açıb. Konfransda qeyd edilib ki, XX əsrin ən qanlı faciələrindən olan Xocalı hadisələri bir millətə qarşı soyqırımıdır. Bu soyqırımı ermənilərin azərbaycanlılara qarşı əsrlər boyu apardığı amansız və vəhşi siyasətin növbəti təzahürü olmuşdur. Xocalı faciəsi bəşəri cinayətdir.***

## “Xocalı faciəsi: insanlığa qarşı cinayət” adlı konfrans

Elmi konfransda AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi katibi, tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimov “Xocalı faciəsi ərəfəsində Azərbaycanda vəziyyət”, institutun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Toğrul Xəlilov “Xocalı faciəsi: tarixi, səbəbləri və dərsləri”, institutun direktor müavini, AMEA-nın müxbir üzvü Hacı Qadir Qədirzadə “Xocalı faciəsinin siyasi və milli mahiyyəti”, institutun şöbə müdiri, dosent Emin Şıxəliyev “Xocalı faciəsi Ermənistanın Azərbaycan xalqına qarşı apardığı soyqırımların tərkib hissəsi kimi”, institutun elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Zeynəb Quliyeva “Xocalı qəhrəmanları” mövzularında məruzələr ediblər.

Elmi konfransa AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yekun vurub.

## Xocalı – qan yaddaşımız

Babək rayonundakı Şıxmahmud Kənd Uşaq Musiqi Məktəbində Xocalı faciəsinin 22-ci ildönümü münasibətilə keçirilən tədbirdə əvvəlcə faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Yığıncaqda çıxış edən məktəbin direktoru Adıgözəl Rzalı bildirmişdir ki, Xocalı faciəsi tariximizin qəhrəmanlıq səhifəsidir. O gecə Azərbaycan xalqı özünün yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini, müstəqillik və azadlıq uğrunda mübarizə əzmini bütün dünyaya nümayiş etdirmişdir.

Sonra məktəbin müəllimlərindən Həcər Tağıyeva, Fatma Abdullayeva, Rəcəb Rəcəbov, Mehriban Zeynalova və başqaları çıxış etmişlər. Çıxışlarda vurğulanmışdır ki, bu gün Azərbaycan dövləti erməni şovinistlərinin azərbaycanlılara qarşı törətdikləri cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Xocalı faciəsinin soyqırımı kimi tanınması üçün məqsədyönlü fəaliyyət göstərir.

Tədbirin sonunda iştirakçılar Xocalı faciəsinin dəhşətlərini əks etdirən sərgiyə baxmışlar.

## Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin yaradılmasının 22-ci ildönümü qeyd edilib

***Bu münasibətlə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində keçirilən tədbiri giriş sözü ilə açan komitə sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov kollektivi təbrik edərək müstəqillik dövründə muxtar respublika gömrük orqanlarının keçdiyi inkişaf yolundan danışıb. Vurğulanıb ki, 22 il bundan öncə ümummilli lider Heydər Əliyev tərəfindən Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin yaradılması ilə muxtar respublikada vahid mərkəzdən idarəolunan gömrük siyasətinin tətbiqinə başlanılıb.***

Komitə sədri Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin ulu öndər Heydər Əliyevin qərarı ilə müstəqil Azərbaycan tarixində yaradılmış ilk mərkəzi gömrük orqanı olduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, dahi rəhbərin ideyalarının uğurla davam etdirilməsi nəticəsində son illər muxtar respublikada gömrük xidmətinin müasir tələblər səviyyəsində təşkili istiqamətində ardıcıl tədbirlər həyata keçirilib. Gömrük orqanlarının strukturu daha da genişləndirilib, infrastruktur yenidən qurulub, maddi-texniki baza müasir tələblər səviyyəsində formalaşdırılıb. İnformasiya-kommunikasiya texnologiyalarından geniş istifadə nəticəsində gömrük sistemi tamamilə avtomatlaşdırılıb.

Komitənin Ümumi şöbəsinin rəisi, gömrük xidməti mayoru Minayə Nəsirova muxtar respublika gömrük orqanları əməkdaşları barəsində tətbiq olunan həvəsləndirmə tədbirləri haqqda məlumat verib. “İlin gömrükçüsü” müəyyən olunaraq mükafatlandırılıb. Həmçinin xidmətdə fərqlənən bir qrup gömrük əməkdaşı təltif edilib, pensiyada olan gömrükçülərə xatirə hədiyyələri təqdim olunub.

Sonda tədbir iştirakçıları “İnkişaf edən gömrük orqanları” adlı filmə baxıblar.

## Növbəti seminar Şahbuz rayonunda keçirilib

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi nikahın bağlanmasının, doğumun və ölümün qeydiyyatının düzgün aparılması ilə bağlı seminarların keçirilməsini davam etdirir. Növbəti belə tədbir Şahbuz rayonunda keçirilmişdir. Tədbiri rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev açmışdır.***



Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev çıxış edərək bildirmişdir ki, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı Ədliyyə Nazirliyinin rayon və şəhər Qeydiyyat şöbələri ilə yanaşı, inzibati ərazi dairəsi üzrə nümayəndəliklərdə də aparılır. Ötən dövr ərzində muxtar respublikanın bütün rayonlarında inzibati ərazi dairəsi üzrə nümayəndəliklər üçün seminarlar təşkil olunmuş və onlar müvafiq normativ-hüquqi aktlardan çıxarışlarla təmin edilmişdir. Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatının aparılmasının qanunvericiliyin tələblərinin uyğunluğunu öyrənmək məqsədilə mütəmadi olaraq nazirlik tərəfindən rayon icra hakimiyyətləri ilə birgə yoxlamalar aparılmış, aşkar olunan nöqsanların aradan qaldırılması üçün müvafiq tədbirlər görülmüş, rayon icra hakimiyyətləri məlumatlandırılmışdır. Qeyd olunmuşdur ki, Şahbuz rayonunda doğum, nikah və ölümün qeydiyyatı 21 inzibati ərazi dairəsi üzrə nümayəndəlikdə aparılaraq rəsmiləşdirilir. 2009-2013-cü illər ərzində Şahbuz rayonunun icra nümayəndəlikləri tərəfindən doğum, nikah və ölüm hallarının qeydiyyatı ilə bağlı 2492 əməliyyat aparılmış və onlardan 375 əməliyyat 2013-cü ilin payına düşmüşdür. Həmin dövrdə Şahbuz rayonunda icra nümayəndələri üçün 14 dəfə seminar təşkil edilmiş, 10 dəfə rayon İcra Hakimiyyəti ilə birlikdə yoxlamalar keçirilmişdir. “Yoxlamalar zamanı yol verilmiş bəzi nöqsanların aradan qaldırılması üçün müvafiq tədbirlər görülmüşdür”, – deyən nazir bildirmişdir ki, hər bir icra nümayəndəsi fəaliyyətini qanunvericiliyə uyğun təşkil etməli, “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununun, Azərbaycan Respublikasının Ailə Məcəlləsinin, kargüzarlıq qaydalarını müəyyən edən təlimatın tələblərinə əməl etməli və vətəndaşlıq vəziyyəti aktlarının qeydə alınmasına görə dövlət rüsumu ödənildikdən sonra müvafiq əməliyyatı rəsmiləşdirməlidir.

Sonra tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

**Xəbərlər şöbəsi**

*İlaxır çərşənbələr*

## Tanrının insanlara bəxş etdiyi ən böyük və əvəzsiz nemət – su

***Tanrının insanlara bəxş etdiyi ən böyük və əvəzsiz nemət sayılan suya inamın başlıca səbəblərindən biri onun varlığı təmin edən əsas vasitələrdən biri olmasıdır. Susuz yaşayışın mümkün olmadığını düşünən əcdadlarımız məhz bu səbəbdən suya ehtiramla yanaşmış, onu qorumuşlar. Eyni zamanda ta əski çağlardan suya ruhun əksetdiricisi kimi baxılmışdır. Əcdadlarımız tərəfindən görülən bəd, qorxulu yuxunun sınsın deyə, suya, yəni suda əks olunan ruha danışılması, səfərə yollananın işi uğurlu alınsın, o, sağ-salamat qayıtsın deyə, arxasınca su səpilməsi müqəddəs ünsürə inamın göstəricisidir. Suyun murdarlanması ən böyük günahlardan sayılmışdır.***

Xalqın su ilə bağlı etiqadlarında su canlı, deyiləni eşidən, başa düşən zənn olunmuşdur. Məsələn, xalqımızın qəhrəmanlıq dastanlarından olan "Kitabi-Dədə Qorqud"da Salur Qazan evinin kimlər tərəfindən talan edildiyini öyrənmək üçün "Su haqq üzün görmüşdür, mən bu suyla xəbərləşim", – deyib suya üz tutur. Sorğusunun sonunda Qazan xanın:

*Ordumun xəbərin bilirmisən, degil mana!*
*Qara başım qurban olsun, suyum, sana! –*

deyə suya müraciəti oğuzlarda suyun doğrudan-doğruya canlı bilinməsi fikrini reallaşdırır.

***Boz ayın dörd müqəddəs çərşənbələrindən birincisi – su çərşənbəsi***

Əbəs deyildir ki, əcdadlarımızın əski bayramlarından olan Novruz insana həyat verən dörd müqəddəs ünsürün – suyun, odun, yelin (havanın), torpağın isinməsi, "dirilməsi" istəyi ilə bağlı yaranmışdır. Yığılan azuqə ehtiyatı tükəndikcə insanda torpağı oyatmaq, əkmək, biçmək arzusu artırdı. Torpaq isə birdən-birə "dirilmirdi", oyanmırdı. Onun oyanması üçün su, istilik (od, Günəş) və yel (hava) lazım idi. Elə bu arzu ilə bağlı xalq çox qədimdən həmin dörd ünsürlə əlaqədar özünün zəngin adət-ənənə, etiqad və ayinlərini yaratmışdır. Təzə ilə dörd həftə qalmış bu ayin və etiqadlar icra olunmağa başlanmışdır.

Boz ayın dörd müqəddəs çərşənbəsinin birincisi əzəl çərşənbədir. Xalq arasında o, "Əvvəl çərşənbə", "Gözəl çərşənbə", "Su çərşənbəsi", "Sular novruzu", "Gül çərşənbə" kimi də tanınır. Mənbələrə görə, əzəl çərşənbədə təzə ilin gəlməsi münasibətilə ən əvvəl su təzələnir, elə buna görə də bu çərşənbə su ilə, suyun təzələnməsi ilə əlaqələndirilir.

Məlumdur ki, türk xalqlarının mifoloji təsəvvürlərində ən qədim kultlar içərisində su kultu mühüm yer tutur. Su ilə bağlı yaranmış tapınmalar içərisində su tanrısı Abanın və Nahidin adı ilə bağlı çox əski süjetlər xalq arasında geniş yayılmışdır. Elə həmin görüş və etiqadlarla bağlı təsəvvürlərin bir çoxu əzəl çərşənbə – su çərşənbəsinin ayin-etiqadları ilə çarpazlaşmış, bu çərşənbənin adı ilə bağlı silsilə inam, etiqad, ənənə, mərasim və sair yaranmışdır. Əzəl çərşənbə suya tapınma inamı ilə başlayır. Hamı hələ gün doğmamışdan su üstünə gedir, təzə suda əl-üzünü yuyur, bir-birinin üzərinə su çiləyir, su üstündən atdanır. İnama görə, "təzə su", daha doğrusu, əzəl çərşənbənin sübh tezdən köpüklənən ağ suyu dərdlərin dərmanı imiş. Çox ehtimal ki, Xızırın dirilik çeşməsindən su içdiyi, Koroğlunun Qoşa bulağı tanıdığı gün də elə əzəl çərşənbə günü olmuşdur. Əski inamlardan üzübəri su sağlamlığın rəhni bilinib. Su çərşənbəsi günü təzə sudan keçənlərin, azarını-bezarını ona verənlərin il boyu xəstəliklərdən uzaq olacağına inanılmışdır. Elə həmin gün su üstündə bir sıra ayinlər icra edilərdi. Səsi batanlara, danışa bilməyənlərə bu sudan içirərdilər. Adamlar elə buradaca günah işlətməyəcəklərinə, ancaq və ancaq yaxşılıq edəcəklərinə and içərdilər. Mərasim suyun başına dövrə vuran adamların aşağıdakı nəğməsi ilə başa çatardı:

*Sel çapar, su çapar,*
*Bir günah işlətdim,*
*Gəl onu tut, apar.*
*Sel çapar, su çapar,*
*Gəl apar, gəl apar.*

Su çərşənbəsi günü adamlar səhər tezdən üz tutarlar axar suyun üstünə; çillə kəsdirər, niyyət eləyib suyun üstündən tullanar, əl-üzlərini yuyar, bir-birinin üstünə su çiləyərdilər. Təzə sudan gətirib evin dörd küncünə, həyət-bacaya, mal-qaranın üstünə çiləyərdilər. İnsanlar bununla ilin ruzi və bərəkətli olacağına inanırmışlar. Qucaqdakı körpələri, qoca və xəstələri də su üstündən hoppandırardılar ki, salamatlıq, əmin-amanlıq, xoşbəxtlik olsun. Suyun qüdrətini, müqəddəsliyini həmişə önə çəkən əcdadlarımız hətta ilin axır çərşənbəsində də "Su üstü" deyilən mərasimi təntənə ilə qeyd etmişlər. Bu ənənə Naxçıvan bölgəsinin (xüsusilə Ordubad rayonunun Tivi kəndində) əhalisi tərəfindən bu gün də yaşadılmaqdadır.

Ulularımız səfərə çıxanın, uzaq ellərə yol alanın arxasınca su atmışlar ki, Tanrı onun köməyi olsun. "Su bulanmayınca durulmaz", "Su murdarlıq götürməz", "Suyu çirkləndirənin nəşini yumağa su tapılmaz", "Suyu ver susayana, içsin qana-qana", "Su axarında salınan el-oba barlı-bəhərli olar", "Su olan yerdə dirilik olar", "Su içən adamı qəfil vurmazlar", "Süfrəyə su dağılması aydınlıqdır", "Su dolu qabla qabağına çıxsalar, işin avand olar", "Su içəni danışdırmazlar", "Lal axan sudan keçməzlər", "Su içən adamı ilan çalmaz" və başqa inanclar, "Su haqqı!", "Axar suya and olsun!" kimi andlar ulu əcdadlarımız tərəfindən su ilə bağlı yaradılan müdrik kəlamlardır.

İlaxır çərşənbələrin hər biri əcdadlarımızın elə müqəddəs etiqadları, duyğuları ilə bağlıdır ki, bu gün onları öz dünənimiz, keçmişimiz kimi öyrənməklə gələcək nəsillərə çatdırmalıyıq.

**Nizami ƏZİZƏLİYEV**

***Futbol üzrə Azərbaycan I divizionunun 18-ci turu çərçivəsində "Araz-Naxçıvan" futbol komandası fevralın 23-də səfərdə "Ağsu"nun qonağı olub. "Araz-Naxçıvan" turnir cədvəlində liderliyini qorumaq və çempionluq yolunda çətin bir səddi aşmaq istəyirdi. Bunun üçün muxtar respublika təmsilçisi mütləq şəkildə qələbə qazanmalı idi. Ağsuya səfər öncəsi baş məşqçi Əsgər Abdullayev açıqlamasında da bu görüşün çətin keçəcəyini vurğulamışdı. Çünki buna kimi Ağsu təmsilçisi iki dəfə Naxçıvanda qonaq olmuş və hər iki matçı eyni hesablı məğlubiyyətlə (1:0) başa vurmuşdu. Odur ki, "Ağsu"nun baş məşqçisi Rüfət Quliyev nəyin bahasına olursa-olsun, "qırmızı-ağlar"ı məğlub etməyi qarşısına məqsəd qoymuşdu.***

## "Araz-Naxçıvan" liderliyini davam etdirir

"Araz-Naxçıvan" bu görüşün əhəmiyyətinin böyük olduğunu öncədən bildiyindən daha ciddi hazırlaşmışdı. Baş məşqçi Əsgər Abdullayev heç kimin gözləmədiyi halda əsas heyətdə bəzi dəyişikliklər etmişdi ki, bu da matçın gedişatına müsbət dərəcədə öz təsirini göstərdi. Müdafiə xətti həmişəkindən fərqli olaraq, iki Ruslana həvalə edilmişdi. Sol cinahda Əlimirzə Daşzərini mübarizə aparırdısa, sağ cinahda Tural Hümbətov əsas heyətdə meydana çıxmışdı və Mikayıl Rəhimov ehtiyatda qalmışdı. Yarımmüdafiə xəttində isə Cavid-Eşqin-Akif triosu oyun ərəfəsində rəqib üçün əsl başağrısına çevrildi. Hücumun sivri ucunda yer alan Bəxtiyar Soltanov son iki turda qol vurmaqla baş məşqçinin etimadını qazanmışdı. Cinahlar isə İrfan Hüseynov və Elmin Çobanova tapşırılmışdı.

"Ağsu" komandası isə doğma azarkeşləri önündə qələbə qazanıb Naxçıvandakı məğlubiyyətlərin təsadüfi olduğunu sübut etmək niyyətində idi. Görünən o idi ki, ötən turlarda azarkeşləri önündə "Neftçala"nı məğlub edən və bununla özündə əlavə güc tapan ağsulular muxtar respublika təmsilçisini yaxşı analiz etməyiblər.

***Gərgin mübarizə, qırmızı vərəqə və növbəti qələbə***

Oyunun gedişatına gəlincə, elə ilk hissənin əvvəlindən başlayaraq oyunun gərgin vəziyyətdə keçəcəyi özünü büruzə verdi. Komandamızın heyətində David Canıyevin olmamasına baxmayaraq, Bəxtiyar-İrfan-Elmin üçlüsü ilk anlardan təhlükəli vəziyyətlərlə yadda qaldılar. Əvvəlcə E.Çobanov müdafiəçilərin səhvindən istifadə edərək cərimə meydançasına daxil oldu. Ancaq rəqibin



bir qədər kobud oynaması hakim Orxan Məmmədovun diqqətindən yayındı. Bu epizodu artıq unudan Naxçıvan təmsilçisi ilk hissənin 10 dəqiqəsində 3 təhlükəli epizod yaratmağa müvəffəq oldu. Nəhayət, qırmızı-ağlar istəklərinə 18-ci dəqiqədə çatdılar. Belə ki, rəqibini əks-hücumda yaxalayan "Araz-Naxçıvan" tablodakı sıfırlardan birini dəyişdi. Ruslan Abıyevin başladığı hücum sol cinahda İrfan Hüseynovla davam etdi. O, rəqib müdafiəçisini keçərək cərimə meydançasına mükəmməl asma göndərdi. Topa hamıdan tez yetişən R.Abıyev isə başla sərrast oynadı və topu qapıdan keçirdi. Bu epizodda onun vurduğu qolu qapıçı, sadəcə, seyr etdi. Təbii ki, vurulan qol komandamızı daha da ruhlandırdı. Ardıcıl hücumlar təşkil edən "Araz-Naxçıvan" oyunun 1/3 hissəsinin tamamında hesabı artıra bilərdi. İ.Hüseynov komanda yoldaşlarından mükəmməl ötürmə aldı və rəqib müdafiəçiləri arxada qoyaraq qapıçı ilə təkbətək qaldı. Lakin onun topu bir qədər ayağından açması ikinci qola imkan vermədi.

İkinci hissə də komandamızın diqtəsi ilə keçdi. Rəqib də ara-sıra hücumlarla qapıçımız Emil Balayevin sayıqlığını yoxladı. Hətta bir epizodda rəqib cərimə meydançamıza lövbər saldı. Amma müdafiəçilərimiz inamlı oynamaqla topu uzaqlaşdırmağı bacardılar. İkinci hissədə İrfanla əvəzlənən Fərid Quliyev hava mübarizəsindən qalib ayrılaraq B.Soltanova ideal ötürmə etdi. Ancaq sonuncunun başla zərbəsi bir qədər qapıdan aralı keçdi. Bəxtiyar bu məqamı dəyərləndirə bilmədikdən 5 dəqiqə sonra daha bir təhlükəli vəziyyətlə azarkeşləri ayağa qaldırmağa nail oldu. Onun, təxminən, 30 metrdən qüvvətli zərbəsi qapıçını narahat etdi. Az sonra isə Akif Tağıyev uzaqdan şansını yoxladı. Bu dəfə də dəri əlcək sahibi topu künc zərbəsinə yollamaqla təhlükəni sovuşdurdu.

Oyunda daha maraqlı anlar isə son 10 dəqiqədə cərəyan etdi. Əvvəlcə sarı vərəqə ilə cəzalandırılan "Araz-Naxçıvan" komandasının oyunçusu bir dəqiqə sonra qırmızı kartla komandanı meydanda azlıqda qoydu. Oyuna yenicə daxil olmuş Fərman Qəmbərov rəqibə qarşı aqressiv hərəkətinə görə referi Orxan Məmmədovun qəzəbinə tuş gəldi. Azlıqda qalmasına baxmayaraq, komandamız 90-cı dəqiqədə ikinci topu rəqibin qapısından keçirə bilərdi. Uzun reyddən sonra qapıçı ilə üzbəüz qalan Əziz Hüseynov topu qapıçının üzərinə vurdu. Halbuki komanda yoldaşı Azər Məmmədova ötürmə edə bilsəydi... Bu epizodu boşa verməsi belə, komandamıza qələbə qazandırdı.

Bununla, növbəti oyunda da qələbə qazanan "Araz-Naxçıvan" klubu turnir cədvəlindəki mövqeyini qorudu və xallarının sayını 49-a yüksəltdi. İndi qırmızı-ağlar ən yaxın izləyicisi "Qaradağ-Lökbatan"ı 9 xal qabaqlayırlar.

Qeyd edək ki, komandamız növbəti oyununu martın 1-də doğma arenada keçirəcək. Rəqib isə Tovuzun "Turan-T" komandasıdır.

**Ceyhun MƏMMƏDOV**

## Şeir müsabiqəsi başa çatmışdır

Xocalı faciəsinin 22-ci ildönümü ilə əlaqədar dünən muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri arasında şeir müsabiqəsi keçirilmişdir. Naxçıvan şəhərindəki 1 nömrəli tam orta məktəbdə keçirilən müsabiqəni Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri və Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyi birgə təşkil etmişlər.

Müsabiqədə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Canməmməd Canməmmədov, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin sektor müdiri Rasim Rüstəmov, Azərbaycan Respublikası Yazıçılar Birliyinin üzvü, şair Ələsgər Axundov çıxış edərək tədbirin əhəmiyyətindən danışmışlar.

Qeyd edək ki, müsabiqədə rayon və şəhər turlarının qalibi olmuş 10 şagird iştirak etmişdir. Şahbuz rayon Keçili kənd tam orta məktəbinin 10-cu sinif şagirdi Elnarə Əliyeva müsabiqənin qalibi olmuşdur. Culfa rayon Yaycı kənd 1 nömrəli tam orta məktəbin 9-cu sinif şagirdi Xanım Abdullayeva ilə Şərur şəhər 2 nömrəli tam orta məktəbin 9-cu sinif şagirdi Lamiyə Bağırbəyli isə ikinci və üçüncü yerlərə layiq görülmüşlər.

Sonda fəxri yerləri tutan və fərqlənən şagirdlərə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin hədiyyələri, diplomları, fəxri fərmanları təqdim olunmuşdur. Qaliblər Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin diplomları ilə təltif edilmişlər.

***Muxtar respublika gömrük orqanlarının əməkdaşları arasında ilk dəfə olaraq atıcılığın sporting idman növü üzrə turnir keçirilib. Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunan yarışda 18 gömrükçü öz sərrastlığını nümayiş etdirib.***

## Sporting üzrə turnir

Gömrükçülərin fiziki sağlamlığını qorumaq, onlar arasında idmanın bu növünü təbliğ etmək, asudə vaxtın səmərəli təşkilinə nail olmaq, silahdan atış vərdişlərini təkmilləşdirmək və bu növdə ən güclü idmançıları müəyyənləşdirmək məqsədilə keçirilən turnir Naxçıvan Muxtar Respublikası Atıcılıq Mərkəzində təşkil olunub. Yarışda hər idmançı sıra ilə beş ayrı hədəfə iki atəş açıb.

Sonda ən yüksək nəticə iki idmançıda qeydə alındığından, onlar eyni qaydada hədəfləri təkrar nişan alıblar. Tətiklə hədəf arasında daha dəqiq olan Rəfael Əliyev (Naxçıvan Şəhər Gömrük İdarəsi) turnirin qalibi olub. Nurəddin Aslanov və Əsgər Qurbanov (Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsi) ikinci, üçüncü yerləri bölüşüblər.

Qaliblər diplom və və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

**Xəbərlər şöbəsi**

***İtmişdir***

Əsgərov Fərid Yaşar oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

***Allah rəhmət eləsin***

Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin rəisi Xaləddin Rüstəmov və idarənin kollektivi **MUSA NƏCƏFOVUN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Mirhüseyn və Anar Seyidovlar Əşrəf Nəcəfova, atası **MUSA NƏCƏFOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin üzvləri və Mərkəzi Aparatın əməkdaşları Bioresurslar İnstitutunun aparıcı elmi işçisi Aydın Qənbərliyə, qardaşı **VASİF QƏNBƏRLİNİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin üzvləri və Mərkəzi Aparatın əməkdaşları Batabat Astrofizika Rəsədxanasının direktor müavini Azad Məmmədliyə, əzizi **DİLBƏR XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Müəllimlər İnstitutunun rektorluğu və professor-müəllim kollektivi Əşrəf Nəcəfova və Məmməd Hacıyevə, əzizləri **MUSA NƏCƏFOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Filarmoniyasının direktoru Elman Əliyev və filarmoniyanın kollektivi Əşrəf Nəcəfova, atası **MUSA NƏCƏFOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Elman Məmmədov və Əşrəf Qasımov ailələri ilə birlikdə Vəliyevlər ailəsinə, əzizləri **MƏMMƏD VƏLİYEVİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin ingilis dili ixtisası üzrə IV kurs tələbələri qrup yoldaşları Elməddin Kərimova, nənəsi **GÜLLÜ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**ŞƏRQ qapısı**
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 204